***ALİ MƏCLİSİN İCLASI***

*31 may 2024-cü il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*
*müavini **Anar İbrahimov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının sonuncu iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasında protokolun mənə verdiyi məlumata görə 37 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 37 |
| Yetərsay | 31 |

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə görə ən azı 31 deputat parlamentin işində iştirak etməlidir. Buna görə də iclas öz işinə başlamağa səlahiyyətlidir.

İclas zalında nazir müavinləri əyləşiblər, sizin adınızdan onları salamlayıram.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilir:

1. “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş).

2. “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş).

3. Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin təsdiq edilməsi.

4. Naxçıvan Muxtar Respublikası təhsil nazirinin təsdiq edilməsi.

5. İntizam komissiyasının məlumatı.

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur!

Deputatlardan kim iclasın gündəliyinin təklif olunan qaydada təsdiq edilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |
| Nəticə: Qəbul edildi | |

Hörmətli deputatlar!

Gündəlikdə duran ilk məsələ üçüncü oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsidir.

Qanun layihəsi 24 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20-ci maddəsinin tələblərinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.

Gündəliyin birinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribliyə verilir.

**İ.Qəribli,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar! Hörmətli hökumət üzvləri!

Hamınızı salamlayıram!

Qeyd olunduğu kimi, “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi 20 və 24 may 2024-cü il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclasında baxılmışdır.

24 may 2024-cü il tarixdəki komitə iclasında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyindən, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyindən və Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən daxil olmuş təkliflər müzakirə edilmiş və qanunun son variantı baxılması üçün Ali Məclisə təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsi hesab edir ki, qanun layihəsi qeyd olunan qaydada qəbul oluna bilər.

**Sədrlik edən.** Məlumat üçün çox sağ olun, İsmayıl müəllim!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır. Bundan öncəki qanun layihələrinin səsə qoyulması sırf prosedur xarakterli idi.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |

Nəticə: Qəbul edildi

Beləliklə, qanun qəbul edildi. Qanunun hazırlanmasında əməyi keçən hamıya, o cümlədən burada olmasalar da qeyd etməliyəm ki, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasına, Ali Məclisin deputatlarına və Aparatının əməkdaşlarına təşəkkürümü bildirirəm. Əminəm ki, bu dəyişikliklərdən sonra seçki kompaniyası daha keyfiyyətli və şəffaf keçiriləcək. Bir daha qanun layihəsinə görə sizi təbrik edirəm.

Hörmətli deputatlar!

Gündəlikdə duran ikinci məsələ üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir.

Qanun layihəsi 24 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20-ci maddəsinin tələblərinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən İqtisadi siyasət komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.

Təqdim edilmiş qanun layihəsi ilə əlaqədar məlumat verməsi üçün söz İqtisadi siyasət komitəsinin sədri İsa İsayevə verilir.

Buyurun, İsa müəllim!

**İ.İsayev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim! Hörmətli sessiya iştirakçıları!

Əvvəlcə hamınızı salamlayıram!

Qeyd etmək istəyirəm ki, "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin üçüncü abzasına və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 29.5-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən hazırlanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim olunmuşdur.

Qanun layihəsi "Normativ hüququ aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır. Təqdim olunmuş qanun layihəsi 18 may 2024-cü il tarixdə İqtisadi siyasət komitəsində, 22 və 24 may 2024-cü il tarixlərdə Ali Məclisin sessiyasında geniş tərkibdə və aktiv şəkildə müzakirə edilmişdir.

Bildiyiniz kimi, "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsində hər hansı bir dəyişiklik olmadığı üçün birinci və ikinci oxunuşlarda qanun layihəsi qəbul olunmuşdur. 2023-cü ilin büdcəsinin icrası ilə bağlı qanun layihəsində əlavə dəyişiklik olmadığı üçün üçüncü oxunuşa təqdim edilə bilər.

Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, məlumata görə minnətdaram!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyularaq qəbul olunmalıdır. Ona görə icazənizlə qanun layihəsini səsə qoyuram.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |

Nəticə: Qəbul edildi

Beləliklə, qanun qəbul edildi. Bu qanunun hazırlanmasında əməyi keçən hər kəsə təşəkkür edirəm.

Gündəlikdə duran üçüncü məsələ Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin təsdiq edilməsidir.

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin təsdiqi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlərdən biri olub, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndi ilə müəyyən edilmişdir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsində Nazirlər Kabinetinin tərkibinin təsdiqi proseduru müəyyən edilmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 36-cı maddəsinin II hissəsinə əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə sessiya dövründə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 32-ci maddəsinin I hissəsinin 4-cü bəndi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə üzvlüyə namizədləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edir.

Naxçıvan Muxtar Respublikasının təhsil və səhiyyə nazirləri vəzifələrinə namizədlər barədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2024-cü il 21 may tarixli təqdimatları Ali Məclisə daxil olmuşdur.

İcazənizlə təqdimatları diqqətinizə çatdırım:

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 36-cı maddəsinin II hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsinə namizəd Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Elxan Tarqulu oğlu Nəcəfov təklif olunur.

İkinci təqdimatı da diqqətinizə çatdırım:

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 36-cı maddəsinin II hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsinə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Samiq Asəf oğlu Sadıxov təklif olunur.

Burada texniki bir səhvlik var. Bildiyiniz kimi, Samiq müəllim nazir müavini deyil, nazirin birinci müavinidir, amma biz bunu bu cür də qəbul edirik.

Təqdimatları olduğu kimi diqqətinizə çatdırdım.

Qanunvericiliyə müvafiq olaraq təklif müzakirəyə təqdim olunur.

Namizədlər haqqında sizin kifayət qədər məlumatınız var. Vaxta qənaət üçün namizədlərin şəxsi məlumatlarını əks etdirən sənədlərin sizə paylanmasını xahiş etmişdim.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsinə namizəd Sadıxov Samiq Asəf oğlu bugünkü iclasımızda iştirak edir. Ali Məclisə müraciət etmək istəyirsinizsə, buyurun, Samiq müəllim!

**S.Sadıxov,** *Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar!

Mən cənab Baş nazirin Ali Məclisə təqdimatına və Ali Məclis sessiyasında iştirakıma və göstərilən etimada görə minnətdarlığımı bildirirəm. Bundan sonra da Naxçıvan səhiyyəsinin inkişafına, əhalinin tibbi xidmətdən yararlanmasına, insanların sağlamlığının qorunmasına var gücümüzlə çalışacağımıza söz verirəm.

**Sədrlik edən.** Çox sağ olun, Samiq müəllim! Sizə uğurlar arzu edirəm!

Təqdim olunan namizədə deputatlardan kiminsə sualı varmı?

Yoxdur!

Hörmətli deputatlar,

Samiq Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsinə təsdiq edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi hazırlanmışdır. İcazənizlə qərar layihəsini diqqətinizə çatdırım:

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi qərara alır:

Samiq Asəf oğlu Sadıxov Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsinə təsdiq edilsin.

İcazənizlə qərarı səsə qoyuram.

Deputatlardan kim qərarın qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 36 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |

Nəticə: Qəbul edildi

Beləliklə, qərar qəbul edildi.

Sadıxov Samiq Asəf oğlu Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsinə təsdiq edilmişdir.

Təbrik edirəm, Samiq müəllim!

İkinci namizədin Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsinə təsdiq edilməsi proseduruna keçirik.

Hörmətli həmkarlar!

Prosedur qaydası eyni olduğu üçün təkrarlamaq istəmirəm.

Qanunvericiliyə müvafiq olaraq təklif müzakirəyə təqdim olunur.

Namizəd haqqında məlumatınız var. Elxan müəllimin şəxsi məlumatlarını əks etdirən sənədlər sizə təqdim edilib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsinə namizəd olan Elxan Nəcəfov bugünkü iclasımızda iştirak edir. Elxan müəllim, əgər Ali Məclisə müraciət etmək istəyirsinizsə, buyurun!

**E.Nəcəfov,** *Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar!

Göstərilən etimada görə sizə, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə, Nazirlər Kabinetinə təşəkkürümü bildirirəm və çoxsaylı təhsil işçiləri ilə birlikdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin üzərinə düşən fəaliyyətlərin qanunauyğun icrası ilə bağlı əlimizdən gələni edəcəyimizə söz verirəm. Bir daha təşəkkür edirəm. Çox sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Elxan müəllim! Sizə uğurlar arzulayıram!

Deputatlardan kiminsə Elxan müəllimə sualı və yaxud müraciəti varsa, buyura bilər.

Yoxdur!

Elxan Nəcəfovun Naxçıvan Muxtar Respublikası təhsil naziri vəzifəsinə təsdiq edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi hazırlanmışdır. İcazənizlə qərar layihəsini də diqqətinizə çatdırım:

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Elxan Tarqulu oğlu Nəcəfov Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsinə təsdiq edilsin.

İcazənizlə qərarı səsə qoyuram.

Deputatlardan kim qərarın oxunan qaydada qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 36 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |

Nəticə: Qəbul edildi

Beləliklə, qərar qəbul edildi.

Nəcəfov Elxan Tarqulu oğlu Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsinə təsdiq edilmişdir.

Elxan müəllim, sizi də təbrik edirəm, uğurlar arzulayıram!

Gündəlikdə duran dördüncü məsələ məlumat xarakterlidir və Ali Məclisin İntizam komissiyasının məlumatı barədədir.

Bilirsiniz ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeni Daxili Nizamnaməsi qəbul olunanda orada İntizam komissiyasının funksiyaları Milli Məclisə uyğun

formalaşdırılmışdır. Bununla da Ali Məclisin İntizam komissiyası Ali Məclisə müraciət etmək imkanı əldə edib. Hesab edirəm ki, Ali Məclis üçün bu, faydalı olacaq.

İntizam komissiyası haqqında çıxış etmək üçün söz komissiyanın sədri Ehtimad Məmmədova verilir. Buyurun, Ehtimad müəllim!

**E.Məmmədov,** *Ali Məclisin İntizam komissiyasının sədri.*

Hörmətli Anar müəllim, hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 46-cı maddəsinə uyğun olaraq yaradılmış İntizam komissiyasının əsas işi "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu ilə müəyyən edilmiş etik davranış qaydalarına riayət edilməsinə nəzarət etmək və bu məsələlərlə bağlı müraciətlərə baxmaqdır. Həmçinin komissiyanın mühüm vəzifələrindən biri də etik davranış qaydaları barədə Ali Məclisin deputatlarını məlumatlandırmaq, bu qaydalarla bağlı rəy və tövsiyələr vermək, həmin qaydaların pozulmasının qarşısının alınması üçün tədbirlər görmək və görülən tədbirlərə dair mütəmadi ümumiləşdirmələr aparıb Ali Məclisin sədrinə məlumat verməkdən ibarətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi Ali Məclisin fəaliyyətinin ümumi qaydalarını müəyyən edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 1.3-cü bəndinə əsasən Ali Məclisin deputatlarının Ali Məclisin iclaslarında iştirakı məcburidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 7.4-cü maddəsinə görə deputatlar Ali Məclisin iclasında üzrsüz səbəbdən iştirak edə bilməyəcəksə, əvvəlcədən Ali Məclisin sədrindən icazə almalıdır. İcazə alaraq Ali Məclisin iclasında iştirak etməmək üzrlü səbəb sayılır. Bu, nizamnamənin 7.2-ci bəndində göstərilib: üzrlü səbəbdən Ali Məclisin iclaslarında iştirak edə bilməyən deputatlar qabaqcadan Ali Məclisin Aparatına məlumat verməlidirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 51.5-ci maddəsinə əsasən Ali Məclisin sədri Ali Məclisin növbəti sessiyasının bütün iclaslarında və ya il ərzində Ali Məclisin 10 iclasında üzrsüz səbəbdən iştirak etməyən deputat barəsində İntizam komissiyasına təqdimatla müraciət edir. Təklif edirəm ki, Ali Məclisin Daxili Nizamnaməsində bu məsələni tənzimləyən maddədə müvafiq dəyişiklik aparılsın, "Ali Məclisin növbəti sessiyasının bütün iclaslarında və ya il ərzində Ali Məclisin 10 iclasında üzrsüz səbəbdən iştirak" məsələsinə yenidən baxılsın, 10 rəqəmi 4 ilə əvəz edilsin.

Hörmətli deputatlar!

Hər birimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq fəaliyyət göstərməli, Ali Məclisin iclaslarında iştirak etməli, seçicilərlə iş aparmalı, deputat etikasını qorumalı, ümumilikdə, Ali Məclisin funksional fəaliyyətinin gücləndirilməsinə töhfə verməliyik.

Diqqətinizə görə çox sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Ehtimad müəllim! Məlumat üçün minnətdaram!

Əslində bu məsələləri Ali Məclis Aparatında paralel müzakirə etmişdik. Bizim bəzi normativ hüquqi aktların tətbiqi barədə düşünəndə yeni nizamnamədəki reallıqlara uyğunlaşdırmaq lazımdır. Mən də sizin dediyiniz meyarlara baxılmasının tərəfdarıyam və Aparatda da buna birlikdə baxacağıq. Əlavə olaraq qeyd etmək istəyirəm ki, Ali Məclisin rəsmi orqanı olan "Şərq qapısı" qəzetinin baş redaktoru da buradadır. Fürsətdən istifadə edib xatırlatmaq istəyirəm ki, qanunda yazılıb ki, Ali Məclisin işində üzrsüz səbəbdən iştirak etməmək, ümumiyyətlə, Ali Məclisin işindəki fəaliyyət barədə hər sessiyadan sonra "Şərq qapısı" qəzetində Ali Məclis tərəfindən məlumat yerləşdirilməlidir. Yəqin ki, biz deputatların fəallığı haqqında Ali Məclis Aparatı vasitəsilə qəzetdə məlumat yerləşdirəcəyik, bu da Daxili Nizamnamədən gələn meyarlarla bağlıdır.

Çox sağ olun!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 1.5-ci maddəsinə əsasən yaz sessiyası mayın 31-dək davam edir.

Bu gün biz 2024-cü ilin yaz sessiyasına yekun vururuq.

Sessiya müddətində Ali Məclisin 8 iclası keçirilmiş, 3 qanun, 9 qərar qəbul edilmiş, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hesabatı dinlənilmiş, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Baş naziri Ali Məclis tərəfindən təyin edilmişdir. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ əsasında “Media haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanmış, layihə deputatların səs çoxluğu ilə qəbul edilmiş, baxılması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin 24 mart 2024-cü il tarixdə keçirilən plenar iclasında qanun layihəsinin birinci oxunuşunda Ali Məclis Aparatının nümayəndələri də iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çap mediası subyektinin təsisçisi olmasını nəzərdə tutan müvafiq dəyişiklik Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1137-VI QD nömrəli Qanunu ilə qəbul edilmişdir.

Yaz sessiyası dövründə Ali Məclisin mükəmməl informasiya resursu olan saytı istifadəyə verilmişdir. Bu isə muxtar respublika parlamentinin işini daha şəffaf, əlçatan və hesabatlı etmişdir. Bu işdə əməyi olanlara məclisin adından ayrıca təşəkkür etmək istəyirəm. Əlavə olaraq qanunların interaktiv müzakirəsi üçün onların sayta yerləşdirilməsi təmin olunmuş, digər mühüm sənədlər vətəndaşlar üçün əlçatan olmuşdur.

Beləliklə, Ali Məclis həm nümayəndəli orqan olaraq, həm də muxtar respublikanın ali qanunverici orqanı kimi fəaliyyətini davam etdirmiş, yaz sessiyası üçün qəbul olunmuş qanunvericilik işləri planında əks olunan tədbirlər demək olar ki, tam həcmdə həyata keçirilmişdir.

Ali Məclisin işinə dəstək verən bütün orqanlara, vətəndaşlarımıza, hörmətli deputatlar, sizin adınızdan təşəkkür edirəm.

Hörmətli deputatlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasını bağlı elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*